UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.2.142
GÜLARƏ ASLANOVA*

# AZƏRBAYCAN BƏSTƏKARLARININ XALQ MUSİQİSİNDƏN ÖZ ƏSƏRLƏRİNDƏ İSTİFADƏSİNDƏ ÜZEYİR HACIBƏYLİNİN ROLU VƏ ONUN TƏRBİYYƏVİ ƏHƏMİYYƏTİ

*Məqalədə Azərbaycan klassik musiqisinin banisi, görkəmli musiqiçi, bəstəkar, pedaqoq Üzeyir Hacibəylinin Azərbaycan bəstəkarlarına xalq musiqisindən: mahnılardan, rəqslərdən, muğamlardan, aşıq musiqilərindən öz yaradıcıllqlarında istifadə etmələrində göstərdiyi təsirdən bəhz edir. Musiqi folklorunun müxtəlif janrlı əsərlərdə: instrumental, vokal, simfonik, həmçinin musiqili-səhnə əsərlərində məhz onun nümunəsi həlledici olmuşdur.Məqalədə Azərbaycan xalq musiqisinin klassik əsərlərdə müxtəlif yollarla daxil olmasının fonu, Azərbaycan bəstəkarlarının mütləq əksərriyyətinindemək olar ki, bütün janrlarda musiqi yaradıcılığında Üzeyir Hacibəylinin musiqi folklorundan istifadə rolu və bu prosesin daha da inkişaf etdirilməsi araşdırılır və təhlil edilir.*

***Açar sözlər:*** *mahnı, ənənə, ekspedisiya, folklor, musiqi, işləmə, tərbiyyəvi*

## Giriş

Azərbaycan musiqi folkloru qədim tarixə malikdir və çox zəngindir. Onun toplanması və yazılması pərakəndə şəkildə olsada, XX əsrin birinci yarısından başlayaraq, get-gedə daha mükəmməl forma alır. Xüsusən xalq musiqisinin sistemli öyrənilməsi, onun nota yazılması və işləmələrin geniş çap olunması məhz XX əsrə təsadüf edir.

Bu işin təməlini qoymuş Üz.Hacıbəyli və M.Maqomayev qoymuşdu və onlar bunun mühümlüyünü dərk edərək ən yüksək estetik kriteriyaları özlərinə məqsəd qoymuşlar. Üz.Hacıbəyli və M.Maqomayevin "Azərbaycan türk el nəğmələri" (1927-ci il) məcmuəsi xalq mahnılarının birinci yazılı nümunəsi sayılır.

## Əsas təhlil

Məcmuədə 33 mahnı: onlardan 22-si fortepiano müşayəti ilə işləmə formasında; 11-i isə təkcə melodiyası verilib. Onu da göstərməliyik ki, topluda tapılan mahnılardan ən yaxşıları daxil olunmuşdu.

Mahnıların çoxu Azərbaycan musiqisinə ən çox məxsus olan üç saylı ölçüdə yazılmış (3/4; 6/8). Bu da ən çox mahnıların sözləri (şeirlərinin) vəzninə uyğunlanıb və hətta 6/8 ölçüsü üstünlüyü ilə. Mahnıların əksəriyyəti Segah muğamında, 13 mahnı Şüştər muğamında və 1 mahnı Bayatı- Şiraz muğamındadır. Mahnıların tonallıqlarıda çox rahatdır. Bu da onların geniş auditoriyaya yönəldilməsini göstərir. Mahnıların dünyada tanınan və qəbul edilən temperasiyada yazılması və fortepiano ilə müşayiəti Azərbaycan musiqi folklorunun dünya musiqi mədəniyyətinin bir hissəsi olduğuna işarədir.

Azərbaycan klassik musiqisinin banisi sayılan, böyük bəstəkarımız Üz.Hacıbəyli özünün publisist əsərlərində, məqalələrində yazır: "Bu mahnılarımız bizim musiqi sərvətimiz və musiqi mənbəyimizdir. Fəqət biz hələ bu sərvət və mənbədən istifadə edə bilməmişik".

O, "El musiqisi haqqında" məqaləsində yazırdı: "El musiqi" əsərlərinin təltif olunmasında, özgələr tərəfindən mənimsənilməsində həpsinin səbəbi el nəğmələrinin toplanması, notaya salınması və nəğmə şəklində həmişəlik saxlanılmasıdır. Əgər el nəğmələri notaya salınaraq toplansa və saxlansa, əlbəttə, heç kəs onu özünə çıxa bilməz. Və eyni zamanda o nəğmələr itib batmaz, tez unudulub məhv olmaz". (7,84) Bu sözləri yazarkan,böyük bəstəkar,alim,pedaqoq xalqa məxsus sərvətin qorunub gələcək nəsillərə ötürməyin əhəmiyyəindən bəhz edib.O yazırdı:"Mən musiqili əsərlərin zərəri və öz tərbiyəvi roluna görə drama nisbətən üçüncü dərəcəli əhəmiyyətə mamik olması haqqında söhbətləri sadəcə olaraq musiqi sənətinə qeyri-ciddi münasibət kimi izah edirəm".

Böyük bəstəkarlarımızın bu sözləri musiqiçilər tərəfindən böyük hörmətlə qarşılanıb və artıq 1932-ci ildə yaranan və xalq artisti Bül-Bülün rəhbərliyi ilə elmi-tədqiqat kabinetinin fəaliyyəti ilə şox aktiv bütün Azərbaycanın rayonlarına və həmçinin başqa republikalarda yaşayan azərbaycanlıların musiqi folklorunu toplamaq məqsədi ilə ekspedisiyalara üz tutdular.

Bu iş 1945-ci ildən Azərbaycan Respublikasının Elmlər Akademiyasının nəzdində yaranan Memarlıq və İncəsənət İnstitutu təşkil olunduqdan sonra, həmin institutun folkloristika şöbəsinə həvalə olunub.

Həm elmi-tədqiqat kabinetinin həm də institutun folkloristika şöbəsinin fəaliyyəti nəticəsində külli miqdarda folklor materialı: xalq mahnıları, aşıq havaları, xalq rəqs melodiyaları və başqa musiqi folklor nümunələri vallarda yazılıb və nota köçürülüb.

Demək olar ki, Azərbaycan bəstəkarlarının əksəriyyəti bu ekspedisiyalarda iştirak edib və musiqi folklorunun toplanması işində fəallıq göstərib. Bunların arasında A.Zeynallı, S.Rüstəmov, F.Əmirov, C.Hacıyev, T.Quliyev, S.Hacıbəyov, N.Məmmədov və başqaları.

Folklorun nota yazılması işində S.Rüstəmovun rolunu danmaq olmaz. O, Cabbar Qaryağdıoğlunun ifasında yüzlərlə mahnını yazıb, nota köçürüb və bununla onları gələcək nəsillər üçün qoruyub saxlayıb. Bütün bu toplanılmış folklor nümunələrindən Azərbaycan bəstəkarları öz əsərlərində geniş istifadə edib.

Müxtəlif alətlər üçün işləmələr, solo və müşayiət üçün, ansamblda ifa üçün işləmələr; klassik janrlarda yazılan əsərlərdə folklor melodiyalarından istifadə, xor kollektivləri üçün olan əsərlərdə, caz improvizasiyalarında, simfonik əsərlərdə, opera və balet və s. janrlarda xalq musiqisinə müraciət olunur.

Böyük Üz.Hacıbəyli və Müslüm Maqomayevin təməli qoyulmuş musiqili-səhnə əsərlərində musiqi folklorundan istifadə təcrübəsi, onlardan sonra yazıb və yaradan Azərbaycan bəstəkarlarının opera və baletlərində geniş yerini tapmışdı.

Xalq mahnıları, aşıq havaları, xalq rəqsləri, təsnif və rəngləri müxtəlif formada musiqili səhnə əsərlərində öz yerini tapmışdı. [3, s. 134]

Azərbaycan bəstəkarlarının musiqi dilinin dərin kökləri milli musiqi ilə: muğam və aşıq yaradıcılığı, xalq mahnı və rəqsləri ilə bağlıdır. Bəstəkar, yaradıcılığında müxtəlif janrlı əsərlərində ənənəvi musiqinin müəyyən cəhətlərindən kompozisiya, məqam, intonasiya, melodiya, ritmika, forma, üslub və s. xüsusiyyətlərindən istifadə olunur. Xüsusilə, muğamla bağlı məqam-intonasiya xüsusiyyətlərindən istifadə önə çıxır.

Milli musiqinin öz əsərlərində istifadəsi Üz.Hacıbəylinin yaradıcılığı ilə başlanır. Üzeyir Hacıbəyov Azərbaycan ənənəvi musiqisinin janr və formalarını, musiqi dilinin əsaslarını dərindən bilərək, bəstəkar yaradıcılığına tətbiq etmiş, eyni zamanda, musiqişünas kimi elmi əsərlərində əsaslandırılmışdır.

Üzeyir Hacıbəyli ilk dəfə olaraq, Azərbaycan xalq musiqisinin potensial imkanlarını yüksək həssaslıqla duyaraq, xalq musiqisinin xüsusiyyətlərindən professional musiqidə istifadə olunmasının mümkünlüyünü göstərmişdir.

Üzeyir Hacıbəyli öz yaradıcılığının ölməz “Leyli və Məcnun” muğam operası ilə Azərbaycan bəstəkarlarının məqam-intonasiya xüsusiyyətlərindən bəhrələnməyi tövsiyə etmişdir.

Milli bəstəkarlıq məktəbimizin bir çox nümayəndəsinin yaradıcılığında xüsusilə də opera və balet əsərlərində, eləcə də operettalarında xalq musiqi janrlarına əsaslanmaları izlənmişdir.

Bir sıra Azərbaycan bəstəkarlarının musiqili-səhnə əsərlərində xalq mahnı və rəqsləri, aşıq yaradıcılığı, muğam, təsnif, rəng üzərində qurulmuş musiqi nömrələri böyük yer tutur.

Azərbaycan bəstəkarlarının yaradıcılığında milli musiqidən istifadənin bir neçə yolu formalaşıb.

Böyük Üz.Hacıbəyli və Müslüm Maqomayevin təməli qoyulmuş musiqili-səhnə əsərlərində musiqi folklorundan istifadə təcrübəsi, onlardan sonra yazıb və yaradan Azərbaycan bəstəkarlarının opera və baletlərində geniş yerini tapmışdı. Xalq mahnıları, aşıq havaları, xalq rəqsləri, təsnif və rəngləri müxtəlif formada musiqili səhnə əsərlərində öz yerini tapmışdı.Bütün bunlar sırf yaradıcılığnan yanaşı həmçinin tərbiyyəvi əhəmiyyət kəsb edir,belə ki,klassik janrlarda yazılmış əsərləri dinləyərkən,milli folklor nümunələrindən də bəhrələnmək ,özünü dünyanın bir hissəsi olduğunu dərk edərkən,milliliyi də goruyub saxlamaq.

Azərbaycan bəstəkarlarının musiqi dilinin dərin kökləri milli musiqi ilə: Muğam və aşıq yaradıcılığı, xalq mahnı və rəqsləri ilə bağlıdır. Bəstəkar, yaradıcılığında müxtəlif janrlı əsərlərində ənənəvi musiqinin müəyyən cəhətlərindən kompozisiya, məqam, intonasiya, melodiya, ritmika,

forma, üslub və s. xüsusiyyətlərindən istifadə olunur. Xüsusilə, muğamla bağlı məqam-intonasiya xüsusiyyətlərindən istifadə önə çıxır.

Milli musiqinin öz əsərlərində istifadəsi Üz.Hacıbəylinin yaradıcılığı ilə başlanır. Üzeyir Hacıbəyov Azərbaycan ənənəvi musiqisinin janr və formalarını, musiqi dilinin əsaslarını dərindən bilərək, bəstəkar yaradıcılığına tətbiq etmiş, eyni zamanda, musiqişünas kimi elmi əsərlərində əsaslandırılmışdır.

Üzeyir Hacıbəyli ilk dəfə olaraq, Azərbaycan xalq musiqisinin potensial imkanlarını yüksək həssaslıqla duyaraq, xalq musiqisinin xüsusiyyətlərindən professional musiqidə istifadə olunmasının mümkünlüyünü göstərmişdir. [1, s. 9]

Azərbaycan bəstəkarlarının bütün janrlar üzrə yaradıcılıqları əsərlərində məqam- intonasiya xüsusiyyətləri özünü qabarıq göstərir.

Azərbaycan bəstəkarlarının müxtəlif janrlarda yazılan əsərlərdə: muğam fantaziya və ya süitalarda, simfonik muğamlarda, müxtəlif alətlər üçün yazılan əsərlərdə xor əsərlərində və s. milli musiqili-intonasiya xüsusiyyətləri özünü göstərir.

Musiqili-səhnə əsərlərində musiqinin melodik quruluş xüsusiyyətlərində, muğamın ritm-intonasiya özəlliklərindən özünü təcəssüm etdirilməsində, harmonik quruluşu və s. milli musiqisinə yaxınlığı göstərir.

Azərbaycan xalq musiqisinin bütün janrlarından : muğam, mahnı, aşıq mahnısı, rəqs və s. bəstəkarların yaratdığı musiqili-səhnə əsərlərində geniş yer tutublar və onları zənginləşdiriblər.

Azərbaycan bəstəkarlarının musiqili-səhnə əsərlərində xalq mahnı və rəqslərindən, aşıq yaradıcılığından, muğamlardan istifadə edilməsi onların əsərlərinin özünəməxsusluğundan,milli ənənəyə bağlılığının parlaq göstəricisidir.

Böyük Üz.Hacıbəyli və Müslüm Maqomayevin təməli qoyulmuş musiqili-səhnə əsərlərində musiqi folklorundan istifadə təcrübəsi, onlardan sonra yazıb və yaradan Azərbaycan bəstəkarlarının opera və baletlərində geniş yerini tapmışdı.

Xalq mahnıları, aşıq havaları, xalq rəqsləri, təsnif və rəngləri müxtəlif formada musiqili səhnə əsərlərində öz yerini tapmışdı.

Azərbaycan bəstəkarlarının musiqi dilinin dərin kökləri milli musiqi ilə: Muğam və aşıq yaradıcılığı, xalq mahnı və rəqsləri ilə bağlıdır. Bəstəkar, yaradıcılığında müxtəlif janrlı əsərlərində ənənəvi musiqinin müəyyən cəhətlərindən kompozisiya, məqam, intonasiya, melodiya, ritmika, forma, üslub və s. xüsusiyyətlərindən istifadə olunur.

Xüsusilə, muğamla bağlı məqam-intonasiya xüsusiyyətlərindən istifadə önə çıxır. Milli musiqinin öz əsərlərində istifadəsi Üz.Hacıbəylinin yaradıcılığı ilə başlanır. Üzeyir Hacıbəyov Azərbaycan ənənəvi musiqisinin janr və formalarını, musiqi dilinin əsaslarını dərindən bilərək, bəstəkar yaradıcılığına tətbiq etmiş, eyni zamanda, musiqişünas kimi elmi əsərlərində əsaslandırılmışdır.

Üzeyir Hacıbəyli ilk dəfə olaraq, Azərbaycan xalq musiqisinin potensial imkanlarını yüksək həssaslıqla duyaraq, xalq musiqisinin xüsusiyyətlərindən professional musiqidə istifadə olunmasının mümkünlüyünü göstərmişdir.

**Məqalənin elmi nəticəsi.** Məqalədə xalq musiqisindən Azərbaycan professional musiqisinin bütün janrlarında geniş istifadəsi dahi bəstəkarımız Üzeyir Hacibəylinin adı ilə bağlıdır və məhz onun şəxsi nümunəsi və çağırışı nəticəsində baş tutub.

**Məqalənin elmi yeniliyi.**Məqalə Azərbaycan xalq musiqisinin professional musiqisinin müxtəlif janrlarda istifadəsinin böyük tərbiyyəvi əhəmiyyəti göstərilir.

**Məqalənin tətbiqi əhəmiyyəti.**Məqalə xalq musiqisinin professional janrlar vasitəsilə qorunub halqa çatdırılmasının vacibliyini təsdigləyir.

## ƏDƏBİYYAT

1.Üz.Hacıbəyov. Azərbaycanda musiqi tərəqqisi.//Maarif və mədəniyyət. 1926 N8,s9.
2.Üz.Hacıbəyov. Ə.Əsərləri.II cild (Cildin redaktoru M.İbrahimov: tərtibat, kommentariya və lüğət Q.Qasımovundur). B.Azərb.EA nəşri, 1965. 412s.

3. İsazadə Ə.İ Azərbaycan xalq musiqi nümunələrinin nota salınma tarixi //-Bakı: Musiqi dünyası, - 2001 N1-2(7), - s.134-136.
4.İsazadə Ə.İ. Azərbaycan musiqi folklorunun öyrənilməsi tarixindən //-Bakı Azərbaycan xalq musiqisi, Elm, - 1981. S.5-29
5.İsmayılov M.S.Azərbaycan xalq musiqisinin janrları/M.S.İsmayılov-Bakı: İşıq.-1984-100s.
6.S.Qasımova, Ü.İmanova, Z.Abdullayeva.Azərbaycan musiqi ədəbiyyatı,(Dərslik) "Elm və təhsil". Bakı-2017, 487s
7. Üz.Hacıbəyov seçilmiş əsərləri, Bakı, Yazıçı 1985.s 184.

***Azərbaycan Dövlət Pedagoji Universiteti**
**baş müəllim**
**E-mail: aslanovagulara@mail.ru***

**Gulare Aslanova**

## THE ROLE OF U. HAJIBEYLI IN THE USE OF THE FOLK MUSIC BY AZERBAIJANI COMPOSERS IN THEIR WORKS AND ITS EDUCATIONAL SIGNIFICANCE

The article talks about the influence that the founder of Azerbaijani classical music,outstanding musician,composer,teacher Uzeyir Hajibeyli had on Azerbaijani composers in their use of folk music:songs,dances,mugham,ashig music in their works.It was his example that was of decisive importance in the further widespread use of musical folklore in works of various genres:instrumental,vocal, symphonic, and also musical-stage. The article examines and analyzes the background of the introduction of Azerbaijani folk music into classical works in different ways, the role of Uzeyir Hacibeyli in the use of musical folklore and the further development of this process in the musical works of the absolute majority of Azerbaijani composers in almost all genres.

**Keywords:** *song, traditions, expedition, folklore, music, processing ,educational*

**Г Асланова**

## РОЛЬ У.ГАДЖИБЕЙЛИ В ИСПОЛЬЗОВАНИИ АЗЕРБАЙДЖАНСКИМИ КОМПОЗИТОРАМИ НАРОДНОЙ МУЗЫКИ В СВОИХ ПРОИЗВЕДЕНИЯХ И ЕЕ ВОСПИТАТЕЛЬНОЕ ЗНАЧЕНИЕ

В статье говорится о том влиянии, которое оказал основоположник азербайджанской классической музыки, выдающийся музыкант, композитор, педагог Узеир Гаджибейли на азербайджанских композиторов в использовании ими народной музыки: песен, танцев, мугама, ашыгской музыки в своих произведениях. Именно его пример оказал решающее значение в дальнейшем широком использовании музыкального фольклора в произведениях различных жанров: инструментальных, вокальных, симфонических, а также музыкально-сценических. В статье рассмотрен и дан анализ предыстории внедрения азербайджанской народной музыки в произведения классических форм отличными друг от друга способами, роли Узеира Гаджибейли в использовании музыкального фольклора и дальнейшего развития

этого процесса в музыкальных произведениях абсолютного большинства азербайджанских композиторов практически во всех жанрах.

**Ключевые слова:** *песня, традиции, экспедиция, фольклор, музыка, обработка ,воспитательный*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.04.2025**
**Son daxilolma tarixi:08.05.2025**